# NAFTALANDA SƏHİYYƏ XİDMƏTİ YÜKSƏLİR

**Ölkə başçısının "Əminəm ki, bir neçə ildən sonra biz istədiyimizə nail olacağıq və Naftalan dünyanın ən gözəl yerlərindən birinə çevriləcəkdir" çox qiymətli kəlamı artıq sözün əsl mənasında, arzudan gerçəkliyə çevrilmişdir.**

Bu unikal kurort zonasında bütün sahələrlə həmahəng səhiyyə sistemində aparılan uğurlu islahatlar, möhtəşəm layihələr, tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, təchizat ilə bağlı görülən məqsədyönlü işlərin bəhrəsini, naftalanlılar öz həyatında hiss etməkdədir.

Naftalan şəhərində son illər səhiyyənin fəaliyyəti barədə məlumat almaq üçün **Naftalan Şəhər Xəstəxanasının baş həkimi Orxan Bağızadə** ilə görüşdük. O qeyd etdi ki, ümummilli lider Heydər Əliyevin uğurlu inkişaf konsepsiyası onun siyasi kursunun layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyev tərəfindən bütün sahələrdə yüksək səviyyədə, müasir modeldə davam etdirilir. Artıq bütün sahələrdə olduğu kimi səhiyyədə də daha yeni islahatlar, innovasiya, təbabətin sosial əhəmiyyətli sahələrində milli fəaliyyət proqramlarının qəbul edilməsi, ölkənin elmi-tibbi potensialının gücləndirilməsi bu gün Azərbaycan səhiyyəsinin əsas inkişaf istiqamətlərindəndir.

Bu gün sözün əsl mənasında, ölkəmizdə baş verən sürətli iqtisadi inkişaf bütün sosial sahələrə əsaslı təkan vermişdir. Tam inamla demək olar ki, son illərdə dünya standartlarına uyğun inkişaf yolu tutmuş Azərbaycan səhiyyəsinin nüfuzu dünyada nəzərəçarpacaq dərəcədə artmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xeyir-duası və iştirakı ilə 2018-ci il 5 iyun tarixində Naftalan Şəhər Xəstəxanasının yeni, möhtəşəm binasının açılışı olmuşdur. 60 çarpayılıq Naftalan Şəhər Xəstəxanası 1,2 hektar ərazidə yerləşir və tikintinin ümumi sahəsi 8 min kvadratmetrdən çoxdur. Yeni tikilmiş 4 mərtəbəli xəstəxanada 25 çarpayılıq terapiya, 10 çarpayılıq pediatriya, 10 çarpayılıq doğum, 10 çarpayılıq cərrahiyyə və 5 çarpayılıq reanimasiya şöbələri fəaliyyət göstərir. Xəstəxananın laboratoriya şöbəsi ən müasir avadanlıqla təchiz olunmuşdur.



Naftalan Şəhər Xəstəxanasında 92 nəfər işçi heyəti fəaliyyət göstərir. Onlardan 16 nəfər həkim heyəti, 35 nəfər tibb bacısı və digər işçi heyəti təşkil edir. Tibb heyəti fədakarlıqla insanların sağlamlığının keşiyində durur.

Xatırladaq ki, 01.01.2020-ci il tarixdən ölkə üzrə İcbari Tibbi Sığortanın tətbiqinə başlanması nəzərdə tutulmuşdur. Bununla əlaqədar olaraq xəstəxanada müvafiq infrastruktur qurulmuşdur ki, bu da İcbari Tibbi Sığortanın tətbiqinə tam hazır olmağın nəticəsidir. Naftalan Şəhər Xəstəxanasının başlıca problemlərindən biri və əsası həkim çatışmazlığıdır. Ümid edirik ki, bu problemimiz də tez bir zamanda öz həllini tapacaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tabşırıq və tövsiyələrinə uyğun respublikanın bütün regionlarında olduğu kimi, Naftalan şəhərində də əhalinin ümumi proflaktik müayinələrə cəlb olunması mütəşəkkilliklə keçirilmişdir.

Bu, möhtərəm ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkə səhiyyəsinə göstərdiyi sonsuz diqqət və qayğının təzahürüdür.

Baş həkim Orxan Bağızadə, səhiyyəyə göstərilən bu sonsuz diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə, eyni zamanda Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını ifadə edərək, tam əminliklə bildirdi ki, Azərbaycanın davamlı və dinamik inkişafı sayəsində Naftalanın fədakar həkimləri, ölkə rəhbərinin səhiyyə işçiləri qarşısında qoyduğu vəzifələri vaxtında, müvəffəqiyyətlə yerinə yetirəcək, əhalinin sağlamlığını təmin edəcəkdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**



